# YARAT-da Nəsimi ruhu



**YARAT Müasir İncəsənət Məkanında yerli və xarici rəssamların əsərlərindən ibarət “Mən və gəmi, mən və böyük daşqın” adlı sərgi açılıb.**



Salonda dahi Nəsimi fəlsəfəsindən bəhrələnən bir qrup istedadlı rəssamın əsərləri nümayiş olunur. Qrupun üzvləri arasında Tərlan Qorçu, Orxan Hüseynov, Əli bəy Hüseynzadə, Səlim Turan, Elturan Məmmədov (Azərbaycan), Mladen Milyanoviç (Bosniya və Herseqovina), Pavla Nikitina (Çexiya), Mixailo Alekseyenko, Volodimir Budnikov, Vlada Ralko (Ukrayna) və başqa ölkələrdən olan istedadlı fırça ustaları var.

Məqsəd təkcə Nəsimini bəşər tarixinin ən böyük mütəfəkkirlərindən biri kimi yad etmək deyil, həm də şairin həyatın mənası haqqındakı dərin və fəlsəfi düşüncələrini göstərməkdir.

Sərginin kuratoru ukraynalı incəsənət tənqidçisi Konstantin Vladirimoviç Doroşenko ekspozisiyalar haqqında danışarkən deyib:

– Nəsiminin mətnlərini diqqətlə oxusanız, özünüzü necə inkişaf etdirmək və dünyanı dəyişmək barədə çoxlu işarələr tapa bilərsiniz. Onun dili müasir səslənməsə də, ideyalarının mahiyyəti aktual olaraq qalır. Nəsimi, daxili harmoniyanın əhəmiyyətindən və insanın dünya qarşısında məsuliyyətindən danışarkən deyirdi ki, dünyada hər şey insandır və bu, mütləq həqiqətdir. Axı bizim hər birimiz ayrı bir dünyayıq.

Ekspozisiyada, həmçinin klassik muğam ənənələrini təbiətin xoş sədaları ilə birləşdirən nadir audiovizual instalyasiya da təqdim olunur.

Qeyd edək ki, sərgi bu il oktyabrın 26-dək davam edəcək.

***S.FİDAN***
***XQ***

Xalq qəzeti .- 2025.- 1 mart (№ 46).- S.16.